Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 23 ” aprel tarixli
127 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**“Diplomatik xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 13.15-ci maddəsində nəzərdə tutulan Azərbaycan Respublikasının dövlət orqanlarının aidiyyəti sahələr üzrə diplomatik nümayəndəliklərə və konsulluqlara, beynəlxalq təşkilatlara, diplomatik nümayəndəliklərin tabeliyində yaradılan təşkilatlara təyin etdikləri, diplomatik nümayəndəliklərin və konsulluqların mövcud olmadığı dövlətlərdə isə ayrıca fəaliyyət göstərən xarici dövlətlərdəki nümayəndələrinə və onların (aparatlarının) işçilərinə təminat və kompensasiyaların verilməsi**

# Q A Y D A L A R I

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 12.5-ci və 13.15-ci maddələrinin tələblərinə uyğun olaraq hazırlanmışdır və həmin Qanunun 13.15-ci maddəsində nəzərdə tutulan Azərbaycan Respublikasının dövlət orqanlarının aidiyyəti sahələr üzrə diplomatik nümayəndəliklərə və konsulluqlara, beynəlxalq təşkilatlara, diplomatik nümayəndəliklərin tabeliyində yaradılan təşkilatlara təyin etdikləri, diplomatik nümayəndəliklərin və konsulluqların mövcud olmadığı dövlətlərdə isə ayrıca fəaliyyət göstərən xarici dövlətlərdəki nümayəndələrinə və onların (aparatlarının) işçilərinə (bundan sonra – nümayəndələr və onların (aparatlarının) işçiləri) və onlarla birlikdə yaşayan ailə üzvlərinə (arvadına (ərinə), 18 yaşına çatmamış uşaqlarına və övladlığa götürdüyü şəxslərə, həmçinin 18 yaşından yuxarı əmək qabiliyyəti olmayan övladlarına və övladlığa götürdüyü şəxslərə) ödənişlərin verilməsini və digər təminatların həyata keçirilməsini tənzimləyir.

1.2. Nümayəndələrin və onların (aparatlarının) işçilərinin siyahısı “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 331 nömrəli Fərmanının 1.6-cı bəndinə əsasən bu Qaydaların 1 nömrəli əlavəsinə uyğun olaraq müəyyən edilir.

1.3. Bu Qaydaların məqsədləri üçün nümayəndələrin və onların (aparatlarının) işçilərinin tabe olduqları dövlət orqanları dedikdə onların əmək (qulluq) münasibətlərində olduqları dövlət orqanları nəzərdə tutulur.

1.4. Nümayəndələrin və onların (aparatlarının) işçilərinin fəaliyyətinin maliyyələşdirilməsi dövlət büdcəsindən ayrılmış vəsaitlər dairəsində tabe olduqları dövlət orqanları tərəfindən “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri gözlənilməklə mərkəzləşdirilmiş qaydada dövlət xəzinədarlığı vasitəsilə həyata keçirilir.

1.5. Bu Qaydalara uyğun olaraq müəyyən edilən ödənişlər nümayəndələrin və onların (aparatlarının) işçilərinin vəzifəyə təyin olunduqları tarixdən Azərbaycan

Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları"na (bundan sonra – "Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları") 4 nömrəli əlavədə hər bir dövlət üzrə müəyyən edilmiş xarici valyutada ödənilir. Nümayəndələrə və onların (aparatlarının) işçilərinə qəbul edən dövlətdə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları mövcud olmadıqda həmin dövlət üzrə nümayəndələrə ödənilən ödənişlər üçün əsas götürülən xarici valyuta Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin razılaşdırılmış təklifləri əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən ayrıca müəyyən edilir.

1.6. Məzuniyyət, ezamiyyət, əmək qabiliyyətini müvəqqəti itirmə dövrləri, eləcə də qanunvericilikdə işçinin iş yerinin və orta əməkhaqqının saxlandığı digər hallar istisna olmaqla, nümayəndələr və onların (aparatlarının) işçiləri təyin olunduqları xidmət yerində hər hansı səbəbdən öz vəzifələrini 30 (otuz) təqvim günündən artıq müddətdə icra edə bilmədikdə onlara yalnız milli valyutada dövlət məvacibi ödənilir.

1.7. Nümayəndələrə və onların (aparatlarının) işçilərinə dövlət məvacibi və bu Qaydalarda nəzərdə tutulan digər ödənişlər hər il dövlət büdcəsi təsdiq olunduqdan və ondan sonra nümayəndələrin saxlanılması üçün nəzərdə tutulmuş vəsaitlərin bölgüsü təsdiq edildikdən sonra 10 (on) gündən gec olmayaraq onların tabe olduqları dövlət orqanları tərəfindən tərtib olunan və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla təsdiq edilən xərclər smetası (bundan sonra – xərclər smetası) əsasında həyata keçirilir. Azərbaycan Respublikasının xarici dövlətdəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzlərinin xərclər smetası, habelə Azərbaycan Respublikasının bəzi xarici dövlətlərdəki səfirliklərində mövcud olan təhsil məsələləri üzrə müşavir ştatları üzrə xərclər smetası Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə yanaşı, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə də razılaşdırılır.

1.8. Nümayəndələrə və onların (aparatlarının) işçilərinə vəsait xarici valyutada təhtəlhesab şəxslər üzrə avans şəklində ayrılır. Bu məqsədlə nümayəndələr və onların (aparatlarının) işçiləri tərəfindən qəbul edən dövlətdəki banklardan birində fiziki şəxs qismində bank hesabı açılır və onların tabe olduqları dövlət orqanları hər ayın 18-25 tarixləri arasında həmin bank hesabına vəsaitin köçürülməsini təmin edirlər.

1.9. Nümayəndələr və onların (aparatlarının) işçiləri (təhtəlhesab şəxslər) tərəfindən rüb ərzində əldə edilən maliyyə vəsaitlərinin istifadəsi ilə bağlı növbəti rübün birinci ayının 5-dək onların tabe olduqları dövlət orqanlarına forması müvafiq qaydada təsdiq edilmiş avans hesabatı rüblük təqdim edilir. Təhtəlhesab şəxslər avans hesabatına xərcləri təsdiq edən bütün əsasverici sənədləri (məvacib, kompensasiya və müavinətlər istisna olmaqla) əlavə etməlidirlər. Bu sənədlərin siyahısının avans hesabatının müvafiq hissəsində qeydiyyatı aparılır. Avans hesabatına əlavə edilən bütün sənədlər onların hesabata birləşdirilmə ardıcıllığı ilə nömrələnir.

1.10. Nümayəndələr və onların (aparatlarının) işçiləri tərəfindən tabe olduqları dövlət orqanlarına təqdim edilən avans üzrə xərclənməyən qalıq vəsait ilkin mənbəyə qaytarılmadan növbəti rübdə istifadə olunur. Eyni şəxsə rübdən sonrakı yeni avans məbləği yalnız əvvəlki rüb ərzində ödənilmiş avans məbləğləri haqqında hesabat təqdim edildikdən və vəsaitin qalığı barədə məlumat əldə edildikdən sonra ödənilir. Təhtəlhesab məbləğlərin avans hesabatı müəyyən olunmuş müddətdə təqdim edilmədikdə həmin məbləğlər Azərbaycan Respublikası Əmək Məcəlləsinin 175-ci və 176-cı maddələrinin tələblərinə uyğun olaraq nümayəndəyə və onun (aparatının) işçilərinə ödənilən dövlət məvacibi və aylıq əlavənin cəmindən tutulur.

1.11. Növbəti il üçün dövlət büdcəsinin layihəsi “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununun 15.3-cü maddəsi ilə müəyyən olunmuş müddət ərzində təsdiq olunmadıqda dövlət büdcəsi təsdiq olunanadək hər ay üzrə nümayəndələrin xərclərinin ötən ilin xərclərinin on ikidə bir hissəsi qədər olan həcmdə maliyyələşdirilməsi həmin Qanunun 15.4-cü maddəsinə əsasən Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən müəyyənləşdirilmiş müvəqqəti qaydalara uyğun aparılır.

1.12. Dövlət büdcəsindən nümayəndələrin və onların (aparatlarının) işçilərinin fəaliyyətinin maliyyələşdirilməsi üçün ayrılan vəsait təyinatı üzrə istifadə edilməli və ilin sonuna istifadə olunmayan qalıq vəsait ilkin mənbəyə qaytarılmalıdır.

1.13. “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında”, “Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında” və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, xarici dövlətlərdəki hərbi qulluqçular və xüsusi rütbəli şəxslər sığorta olunarkən, həmçinin onlara əmək pensiyası təyin edilərkən onların müvafiq dövlət qurumunda ştat üzrə tutduğu son vəzifəyə uyğun hesablanan pul təminatı və əməkhaqqı əsas götürülür.

## 2. Nümayəndələrə və onların (aparatlarının) işçilərinə ödənilən dövlət məvacibi, aylıq əlavə və dövlət məvacibinə fərqləndirici əmsalın tətbiq edilməsi

2.1. Nümayəndələrə və onların (aparatlarının) işçilərinə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi məbləğdə dövlət məvacibi və təyin olunduqları diplomatik nümayəndəliyin və konsulluğun, beynəlxalq təşkilatın, diplomatik nümayəndəliklərin tabeliyində yaradılan təşkilatın yerləşdiyi, habelə diplomatik nümayəndəliklərin və konsulluqların mövcud olmadığı dövlətlərdə isə ayrıca fəaliyyət göstərdiyi dövlətin və onun müvafiq şəhərinin sosial-iqtisadi və maddi-məişət şəraiti nəzərə alınmaqla aylıq əlavə ödənilir.

2.2. Aylıq əlavənin məbləği nümayəndələrin və onların (aparatlarının) işçilərinin dövlət məvacibindən qanunvericiliyə uyğun olaraq vergilər və digər icbari ödənişlər çıxıldıqdan sonra qalan vəsaitə (dövlət məvacibinin nümayəndələrə və onların (aparatlarının) işçilərinə ödənilən hissəsinə) fərqləndirici əmsal tətbiq edilməklə alınan məbləğlə həmin qalan vəsait arasındakı fərqə bərabər götürülür.

2.3. Nümayəndələrin və onların (aparatlarının) işçilərinin dövlət məvacibinə fərqləndirici əmsal xidmət keçdikləri dövlət üzrə “Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları”na 5 nömrəli əlavə ilə müəyyən edilmiş qaydada və hədlərdə tətbiq edilir. Nümayəndələrin və onların (aparatlarının) işçilərinin xidmət keçdikləri dövlətdə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları mövcud olmadıqda həmin dövlət üzrə fərqləndirici əmsal Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin razılaşdırılmış təklifləri əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən ayrıca müəyyən edilir.

## 3. Tibbi xidmət (sığorta) xərcləri

3.1. Qəbul edən dövlətdə xidmət etdikləri dövrdə nümayəndələrin və onların (aparatlarının) işçilərinin və onlarla birlikdə yaşayan ailə üzvlərinin müvafiq tibbi xidmət (sığorta) xərcləri “Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları”na 1 nömrəli əlavədə müəyyənləşdirilən və dövlət büdcəsinin

vəsaitləri hesabına maliyyələşdirilən tibbi sığorta zərfi əsasında həyata keçirilir. Bu məqsəd üçün dövlət büdcəsində nümayəndələrin və onların (aparatlarının) işçilərinin qəbul edən dövlətlərdə tibbi sığorta qiymətlərinin orta səviyyəsi nəzərə alınmaqla müvafiq vəsaitlər nəzərdə tutulur.

3.2. Qəbul edən dövlətlərdə tibbi sığorta xidmətindən istifadə mümkün olmadıqda, nümayəndələr və onların (aparatlarının) işçiləri və onlarla birlikdə yaşayan ailə üzvləri xərclər smetasında tibbi xidmət (sığorta) xərcləri üçün nəzərdə tutulmuş vəsaitlər dairəsində bu Qaydaların 3.1-ci bəndində göstərilən tibbi sığorta zərfinə daxil olan tibbi xidmətlərdən yararlana bilərlər.

3.3. Nümayəndələrdən, onların (aparatlarının) işçilərindən və onlarla birlikdə yaşayan ailə üzvlərindən xidməti zərurətlə bağlı, həmçinin ödənişli məzuniyyət zamanı müxtəlif tipli tibbi arayışlar və tibbi test nəticələri tələb olunduqda xərclər təsdiqedici sənədlər əsasında bu məqsəd üçün nəzərdə tutulmuş vəsaitlər hesabına ödənilir.

3.4. Nümayəndələr və onların (aparatlarının) işçiləri xidməti zərurətlə bağlı üçüncü dövlətə ezamiyyətə göndərildikdə, ezamiyyət müddətinin günlərinə uyğun əlavə səyahət sığortası tələb olunduqda xərclər təsdiqedici sənədlər əsasında bu məqsəd üçün nəzərdə tutulmuş vəsaitlər hesabına ödənilir.

## 4. Nəqliyyat və yüklərin daşınması xərcləri

4.1. Nümayəndələr və onların (aparatlarının) işçiləri müvafiq vəzifəyə təyin olunduqda və geri çağırıldıqda, habelə xidmətinə xitam verildikdə xidmət keçdiyi dövlətə və onun müvafiq şəhərinə getmək və Azərbaycan Respublikasına qayıtmaqla əlaqədar tutduğu vəzifə, həmçinin ailə üzvlərinin sayı nəzərə alınmaqla nəqliyyat xərcləri (onların xarici dövlətlərdə yaşadıqları ünvandan limana (vağzala) kimi olan nəqliyyat xərcləri də daxil olmaqla), habelə yüklərin daşınması xərcləri (ailə üzvlərinin hər biri üçün 80 kq-dək, yükün ümumi çəkisi 240 kq-dan artıq olmamaqla) bu məqsədlər üçün xərclər smetasında nəzərdə tutulmuş vəsaitlər hesabına müvafiq təsdiqedici sənədlər əsasında ödənilir.

4.2. Nümayəndələrin, onların (aparatlarının) işçilərinin əmək məzuniyyəti ilə əlaqədar onların və ailə üzvlərinin, habelə nümayəndələrin və onların (aparatlarının) işçilərinin əmək məzuniyyətinə çıxıb-çıxmamasından asılı olmayaraq, ailə üzvlərinin ildə bir dəfə Azərbaycan Respublikasına gəlmək və nümayəndələrin, onların (aparatlarının) işçilərinin xidmət keçdiyi dövlətə və onun müvafiq şəhərinə qayıtmaq həddində nəqliyyat xərcləri, həmçinin ailə üzvünün (üzvlərinin) ölümü ilə əlaqədar nümayəndələrin və onların (aparatlarının) işçilərinin, onların ailə üzvlərinin Azərbaycan Respublikasına gəlməsi və xidmət keçdiyi dövlətə qayıtması ilə bağlı nəqliyyat xərcləri bu Qaydaların 4.1-ci bəndində nəzərdə tutulmuş qaydada ödənilir.

## 5. Yaşayış sahəsi ilə təminat

5.1. Nümayəndələrin və onların (aparatlarının) işçilərinin tutduqları vəzifə və ailə üzvlərinin sayı nəzərə alınmaqla məişət ləvazimatı (mebel, inventar və avadanlıqlar) ilə komplektləşdirilmiş yaşayış sahəsi ilə təmin olunması üçün xərclər smetasında müvafiq vəsaitlər nəzərdə tutulur. Həmin vəsaitlər nümayəndələr, onların (aparatlarının) işçiləri və onlarla birlikdə yaşayan ailə üzvləri üçün yaşayış sahəsinin icarəsi ilə bağlı xərcləri, o cümlədən nümayəndələrin və onların (aparatlarının) işçilərinin xidmət keçdiyi dövlətin qanunvericiliyinə uyğun olaraq yaşayış sahəsinin icarəyə götürülməsi ilə bağlı digər xərcləri təmin etməlidir.

5.2. Nümayəndələrin və onların (aparatlarının) işçilərinin yaşayış sahəsi üzrə kommunal xidmətlərinin haqqı nümayəndələrin və onların (aparatlarının) işçilərinin şəxsi vəsaiti hesabına ödənilir.

5.3. Nümayəndələrin və onların (aparatlarının) işçilərinin yaşayış sahəsi ilə təminatı xərclər smetasında qeyd olunan məqsəd üçün nəzərdə tutulmuş vəsaitlər dairəsində bu Qaydaların 2 nömrəli əlavəsi ilə müəyyən edilən normalar əsasında həyata keçirilir.

Yaşayış yerinin sahəsi nəzərdə tutulmuş normalardan (müvafiq qaydada artırılmış normalar nəzərə alınmaqla) artıq olduğu təqdirdə, artıq olan sahənin haqqı nümayəndələrin və onların (aparatlarının) işçilərinin öz şəxsi vəsaiti hesabına ödənilir.

5.4. Nümayəndələr və onların (aparatlarının) işçiləri qəbul edən dövlətlərdə fəaliyyət göstərdikləri şəhərlərdə Azərbaycan Respublikasının mülkiyyətində olan yaşayış sahələri ilə təmin olunduqları hallarda həmin sahələrə görə icarə haqqı ödənilmir.

5.5. Nümayəndələr və onların (aparatlarının) işçiləri tərəfindən yaşayış sahəsi icarəyə götürüldükdə həmin sahənin icarəsi üçün ödənilən haqqın məbləği onların xidmət keçdikləri dövlətin müvafiq yaşayış məntəqəsində mövcud olan qiymətlərin orta səviyyəsinə uyğun müəyyən edilir. Qiymətlərin orta səviyyəsinin müəyyən edilməsi məqsədilə müvafiq yaşayış məntəqəsində yaşayış sahəsinin icarəsi ilə məşğul olan şəxslərə (3-dən az olmamaq şərtilə) sorğu edilir.

5.6. Yaşayış sahəsi icarəyə götürüldükdə icarəyə verənlə icarə müqaviləsi həmin sahədə yaşayacaq nümayəndələr və onların (aparatlarının) işçiləri tərəfindən bağlanılır. Bu müqavilə nümayəndənin və onun (aparatının) işçilərinin təyin olunduğu dövlətə gəldiyi tarixdən 15 (on beş) gündən gec olmayaraq, fəaliyyətə yeni başlamış nümayəndə və onun (aparatının) işçiləri tərəfindən isə 30 (otuz) gündən gec olmayaraq bağlanılmalıdır. Həmin müddət ərzində mehmanxanadan istifadə olunduqda, mehmanxana xərcləri həmin dövlət üçün "Ezamiyyə xərclərinin normaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarı ilə müəyyən olunmuş mehmanxana xərcləri normalarından artıq olmamalıdır. Qeyd olunan müddət ərzində müqavilə bağlanılmadıqda mehmanxana xərcləri nümayəndənin və onun (aparatının) işçilərinin şəxsi vəsaiti hesabına ödənilir.

5.7. İcarə müqaviləsində digər şərtlərlə yanaşı, aşağıdakıların da nəzərdə tutulması zəruridir:

5.7.1. yaşayış sahəsinin ölçüləri, icarə müddəti və ödəniş şərtləri;

5.7.2. icarəçinin hər hansı vergi ödəməli olmaması;

5.7.3. icarəçinin xidməti zərurətlə əlaqədar icarə müqaviləsinə istənilən vaxt xitam vermək hüququnun olması;

5.7.4. yaşayış sahəsi və oradakı mebel, inventar və digər avadanlığın icarəyə verənin hesabına sığortalanması;

5.7.5. yaşayış sahəsi və oradakı mebel, inventar və digər avadanlığın təmir xərclərinin (təbii aşınma nəzərə alınmaqla) icarəyə verən tərəfindən ödənilməsi.

5.8. Yaşayış sahəsinin icarə xərcləri aylıq əsasda ödənilir. Yaşayış sahəsinin icarə xərclərinin illik məbləğinin icarəyə verənə əvvəlcədən ödənilməsinə icazə verilmir. Yalnız qəbul edən dövlətin yaşayış sahəsinin icarə prosedurlarına əsasən icarə xərclərinin illik ödənilməsi tələb olunduğu halda nümayəndələrin və onların (aparatlarının) işçilərinin tabe olduğu dövlət orqanının razılığı ilə yaşayış sahəsinin icarə xərclərinin ən çoxu 1 (bir) illik məbləği əvvəlcədən ödənilə bilər.

5.9. Yaşayış sahəsinin icarə xərclərinin ödənilməsi xərclər smetasında bu məqsəd üçün nəzərdə tutulmuş vəsaitlər dairəsində nümayəndə və onun (aparatının) işçiləri ilə icarəyə verən arasında bağlanılmış icarə müqaviləsi əsasında bu Qaydaların 1.8-ci bəndinə uyğun olaraq həyata keçirilir. Nümayəndə və onun (aparatının) işçiləri ilə birlikdə

yaşayan ailə üzvlərindən biri eyni xarici dövlətdə nümayəndə və ya onun (aparatının) işçisi qismində çalışdığı halda yaşayış sahəsi üçün icarə xərci yalnız ailə üzvlərindən birinə ödənilir.

5.10. Nümayəndələrin və onların (aparatlarının) işçilərinin yaşayış sahəsinin icarəsi zamanı girov kimi depozitə qoyulmuş dövlət büdcəsi vəsaitinin qaytarılması təmin olunmadığı halda həmin vəsait aidiyyəti nümayəndədən və onun (aparatının) işçilərindən tutulur.

5.11. Yaşayış sahəsinin və oradakı mebel, inventar və avadanlığın təbii aşınması ilə əlaqədar olmayan təmir xərcləri nümayəndələrin və onların (aparatlarının) işçilərinin şəxsi vəsaiti hesabına ödənilir.

5.12. Nümayəndələr və onların (aparatlarının) işçiləri icarəyə götürdüyü yaşayış sahəsini icarəyə verənə təhvil verərkən icarəyə verəndən həmin nümayəndəyə və onun (aparatının) işçilərinə qarşı icarə öhdəlikləri ilə əlaqədar heç bir iddianın olmadığı barədə yazılı təsdiqedici sənəd almalıdır.

5.13. Yaşayış sahəsinin icarəyə götürülməsi ilə bağlı bu Qaydaların 5-ci hissəsində nəzərdə tutulmuş şərtlərlə icarəyə verən razılaşmadıqda və müvafiq ərazidə daha sərfəli şərtlərə yaşayış sahəsinin icarəyə götürülməsi mümkün olmadıqda qeyd olunan icarə şərtləri nümayəndələrin və onların (aparatlarının) işçilərinin tabe olduğu dövlət orqanının və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin razılığı əsasında dəyişdirilə bilər.

## 6. Təhsil xərcləri

6.1. Nümayəndələr və onların (aparatlarının) işçilərinin ailə üzvlərinin qəbul edən dövlətdə ümumi təhsil pilləsi üzrə (məktəbəhazırlıq, ibtidai, ümumi orta və tam orta təhsil) təhsil xərcləri ilə bağlı müavinətin ödənilməsi üçün tələb olunan vəsaitlər xərclər smetasında nəzərdə tutulur.

6.2. Müavinət nümayəndələr və onların (aparatlarının) işçiləri ilə birlikdə yaşayan və ümumi təhsil pilləsi üzrə təhsil alan hər bir ailə üzvü üçün müvafiq təhsil müəssisəsi ilə bağlanılmış müqavilədə nəzərdə tutulan məbləğə bərabər, lakin ayda 700 ABŞ dollarından və ya müvafiq valyutada onun ekvivalentindən çox olmamaq şərtilə ödənilir.

6.3. Təhsil xərclərinin müavinətdən artıq olan hissəsi nümayəndələrin və onların (aparatlarının) işçilərinin şəxsi vəsaiti hesabına ödənilir.

## 7. Digər təminatlar

7.1. Nümayəndələrə və onların (aparatlarının) işçilərinə səlahiyyətlərinin icrası ilə bağlı bu Qaydaların 3 nömrəli əlavəsinə əsasən aylıq təmsilçilik müavinəti ödənilir.

7.2. Nümayəndələrin və onların (aparatlarının) işçilərinin işlədiyi dövlətdə onlarla birlikdə yaşayan 18 yaşına çatmamış uşaqlarının və övladlığa götürdüyü şəxslərin hər biri üçün müvafiq dövlət məvacibinə bu Qaydaların 2.3-cü bəndinə uyğun olaraq fərqləndirici əmsal tətbiq edildikdən sonra alınan məbləğin 2 (iki) faizi həcmində müavinət ödənilir.

7.3. Nümayəndələrə və onların (aparatlarının) işçilərinə işlədikləri dövlətdə onlarla birlikdə yaşayan və yaşı 18 yaşından yuxarı əmək qabiliyyəti olmayan övladları və övladlığa götürdüyü şəxslər üçün “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən müəyyən edilmiş müavinətin ABŞ dolları ekvivalentində məbləğinə bu Qaydaların 2.3-cü bəndində nəzərdə tutulan fərqləndirici əmsal tətbiq edildikdən sonra alınan məbləğlə milli valyutada ödənilən müavinət arasında olan fərq həcmində bu Qaydaların 1.5-ci bəndi nəzərə alınmaqla müvafiq valyutada aylıq müavinət ödənilir.

7.4. Qəbul edən dövlətdə müvafiq vəzifəyə təyin olunarkən nümayəndələrə və onların (aparatlarının) işçilərinə tutduqları vəzifə üzrə dövlət məvacibinin 1 (bir) misli həcmində birdəfəlik yerləşmə müavinəti ödənilir.

7.5. Siyahısı "Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları"na 6 nömrəli əlavə ilə müəyyən edilən müharibə və silahlı münaqişə şəraitində olan xarici dövlətlərdə faktiki fəaliyyət göstərən nümayəndələrə və onların (aparatlarının) işçilərinə onların dövlət məvaciblərinə müəyyən edilmiş qaydada fərqləndirici əmsal tətbiq edildikdən sonra alınan məbləğin 30 (otuz) faizi həcmində aylıq kompensasiya ödənilir.

7.6. Nümayəndələrə və onların (aparatlarının) işçilərinə işlədikləri dövrdə onlara və ya onlarla birlikdə yaşayan ailə üzvlərinə öz xidməti vəzifələrini yerinə yetirərkən dəymiş zərərin əvəzi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ödənilir.

7.7. Nümayəndələrin və onların (aparatlarının) işçilərinin qəbul edən dövlətdə işlədikləri dövrdə əldə etdikləri vəsaitin və əmlakın Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsi Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

7.8. Nümayəndələr və onların (aparatlarının) işçiləri və ya ailə üzvləri xaricdə vəfat etdiyi təqdirdə, nəşin Azərbaycan Respublikasına gətirilməsi xərcləri dövlət büdcəsi hesabına ödənilir.

## 8. Nümayəndələrin və onların (aparatlarının) işçilərinin bəzi xərclərinin tənzimlənməsi

8.1. Nümayəndələr tərəfindən ştatdankənar işçilərin işə qəbul edilməsi bu məqsəd üçün xərclər smetasında nəzərdə tutulmuş vəsaitlər dairəsində onların tabe olduğu dövlət orqanları ilə razılaşdırılmaqla, nümayəndələr və işçilər arasında bağlanılmış müqavilələr əsasında həyata keçirilir. Ştatdankənar işçilərin aylıq əməkhaqqı nümayəndələrin xidmət keçdiyi xarici dövlətdə mövcud olan orta aylıq əməkhaqqından çox olmamalıdır.

8.2. Nümayəndələrə və onların (aparatlarının) işçilərinə xidməti minik avtomobillərinin say həddi (limiti) bu Qaydaların 4 nömrəli əlavəsinə əsasən müəyyən edilir. Xidməti minik və digər avtonəqliyyat vasitələri üçün istismar xərclərinin normaları "Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları"na 3 nömrəli əlavədə nəzərdə tutulmuş qaydada tənzimlənir.

8.3. Fəaliyyətə yeni başlamış nümayəndələrə və onların (aparatlarının) işçilərinə xidməti minik avtomobilləri alınana qədər 30 (otuz) gün ərzində 1 (bir) ədəd nəqliyyat vasitəsi orta qiymətlər əsasında icarəyə götürülə bilər.

8.4. Nümayəndələrin və onların (aparatlarının) işçilərinin fəaliyyət göstərdiyi yerin iqlimi və coğrafi şəraiti nəzərə alınmaqla xidməti minik avtomobili yüksəkkeçidli avtomobil kateqoriyasından ola bilər.

8.5. Nümayəndələrin və onların (aparatlarının) işçilərinin təqsiri üzündən baş vermiş avtomobil qəzası ilə bağlı çəkilmiş müvafiq xərclər həmin əməkdaşın vəsaiti hesabına ödənilir.

**Qeyd.** Bu Qaydaların məqsədləri üçün Azərbaycan manatının ABŞ dollarına olan məzənnəsi, həmçinin avronun, Böyük Britaniya funt sterlinqinin, İsveçrə frankının və Yaponiya yeninin ABŞ dollarına olan çarpaz məzənnəsi Azərbaycan Respublikası Mərkəzi Bankının 2022-ci il 1 iyul tarixinə olan məzənnə göstəricilərinə əsasən müəyyən edilir.

**“Diplomatik xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 13.15-ci maddəsində nəzərdə tutulan Azərbaycan Respublikasının dövlət orqanlarının aidiyyəti sahələr üzrə diplomatik nümayəndəliklərə və konsulluqlara, beynəlxalq təşkilatlara, diplomatik nümayəndəliklərin tabeliyində yaradılan təşkilatlara təyin etdikləri, diplomatik nümayəndəliklərin və konsulluqların mövcud olmadığı dövlətlərdə isə ayrıca fəaliyyət göstərən xarici dövlətlərdəki nümayəndələrinə və onların (aparatlarının) işçilərinə təminat və kompensasiyaların verilməsi Qaydaları”na**

**1 nömrəli əlavə**

**Nümayəndələrin və onların (aparatlarının) işçilərinin**

**SİYAHISI**

1. **Ticarət nümayəndəsinin aparatı üzrə:**
1.1. ticarət nümayəndəsi;
1.2. baş məsləhətçi;
1.3. məsləhətçi;
1.4. mütəxəssis.
2. **Hərbi attaşelik aparatları üzrə:**
2.1. hərbi attaşe (nümayəndə);
2.2. hərbi attaşenin (nümayəndənin) müavini;
2.3. hərbi attaşenin (nümayəndənin) başköməkçisi;
2.4. NATO-nun müvafiq strukturlarında və sülhməramlı birləşmiş çoxmillətli qərargahlarında Azərbaycan Respublikasının Silahlı Qüvvələrini təmsil edən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin büdcəsi hesabına saxlanılan hərbi qulluqçular;
2.5. hərbi attaşenin (nümayəndənin) köməkçisi;
2.6. hərbi attaşenin (nümayəndənin) referenti.
3. **Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin nümayəndəsi.**
4. **Azərbaycan Respublikasının xarici dövlətdəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzləri üzrə:**
4.1. direktor;
4.2. direktorun müavini;
4.3. baş məsləhətçi;
4.4. məsləhətçi;
4.5. mütəxəssis.
5. **Təhsil məsələləri üzrə müşavir.**
6. **Gömrük attaşesi (nümayəndə).**

**“Diplomatik xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 13.15-ci maddəsində nəzərdə tutulan Azərbaycan Respublikasının dövlət orqanlarının aidiyyəti sahələr üzrə diplomatik nümayəndəliklərə və konsulluqlara, beynəlxalq təşkilatlara, diplomatik nümayəndəliklərin tabeliyində yaradılan təşkilatlara təyin etdikləri, diplomatik nümayəndəliklərin və konsulluqların mövcud olmadığı dövlətlərdə isə ayrıca fəaliyyət göstərən xarici dövlətlərdəki nümayəndələrinə və onların (aparatlarının) işçilərinə təminat və kompensasiyaların verilməsi Qaydaları”na**

**2 nömrəli əlavə**

**Nümayəndələrin və onların (aparatlarının) işçilərinin yaşayış yeri ilə təminatı normaları**

| **Sıra №-si** | **Vəzifələrin adları** | **Yaşayış sahəsinin yuxarı həddi (kvadratmetr)** |
|---|---|---|
| 1. | Ticarət nümayəndəsi | 80 |
| 2. | Hərbi attaşe (nümayəndə), təhsil məsələləri üzrə müşavir, mədəniyyət mərkəzinin direktoru, Daxili İşlər Nazirliyinin nümayəndəsi, gömrük attaşesi (nümayəndə) | 70 |
| 3. | Hərbi attaşenin (nümayəndənin) müavini, hərbi attaşenin (nümayəndənin) baş köməkçisi, NATO-nun müvafiq strukturlarında və sülhməramlı birləşmiş çoxmillətli qərargahlarında Azərbaycan Respublikasının Silahlı Qüvvələrini təmsil edən Müdafiə Nazirliyinin büdcəsi hesabına saxlanılan hərbi qulluqçuları | 60 |
| 4. | Hərbi attaşenin (nümayəndənin) köməkçisi, ticarət nümayəndəsinin aparatının baş məsləhətçisi, mədəniyyət mərkəzinin direktorunun müavini | 50 |
| 5. | Hərbi attaşenin (nümayəndənin) referenti, ticarət nümayəndəsinin aparatının məsləhətçisi, mədəniyyət mərkəzində baş məsləhətçi | 40 |
| 6. | Digər işçilər | 35 |

**Qeyd.** 1. Nümayəndələr və onların (aparatlarının) işçiləri ilə birlikdə yaşayan 2 (iki) və daha çox ailə üzvü olduqda göstərilən yaşayış sahəsinin yuxarı həddi (adambaşına düşən yaşayış sahəsi 12 kvadratmetrdən artıq olmamaqla) artırıla bilər.

2. Yaşayış sahəsinə yataq otaqlarının tutduğu sahə daxil edilir.

**“Diplomatik xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 13.15-ci maddəsində nəzərdə tutulan Azərbaycan Respublikasının dövlət orqanlarının aidiyyəti sahələr üzrə diplomatik nümayəndəliklərə və konsulluqlara, beynəlxalq təşkilatlara, diplomatik nümayəndəliklərin tabeliyində yaradılan təşkilatlara təyin etdikləri, diplomatik nümayəndəliklərin və konsulluqların mövcud olmadığı dövlətlərdə isə ayrıca fəaliyyət göstərən xarici dövlətlərdəki nümayəndələrinə və onların (aparatlarının) işçilərinə təminat və kompensasiyaların verilməsi Qaydaları”na**

**3 nömrəli əlavə**

**Nümayəndələrə və onların (aparatlarının) işçilərinə ödənilən aylıq təmsilçilik müavinəti**

| Sıra №-si | Vəzifələrin adları | Təmsilçilik müavinətinin miqdarı, dövlət məvacibinə müəyyən edilmiş qaydada fərqləndirici əmsal tətbiq edildikdən sonra alınan məbləğə (faizlə) |
|---|---|---|
| 1. | Ticarət nümayəndəsi, hərbi attaşe (nümayəndə) | 15 |
| 2. | Təhsil məsələləri üzrə müşavir, Daxili İşlər Nazirliyinin nümayəndəsi, gömrük attaşesi (nümayəndə), mədəniyyət mərkəzinin direktoru, hərbi attaşenin (nümayəndənin) müavini, hərbi attaşenin (nümayəndənin) baş köməkçisi, mədəniyyət mərkəzinin direktorunun müavini, NATO-nun müvafiq strukturlarında və sülhməramlı birləşmiş çoxmillətli qərargahlarında Azərbaycan Respublikasının Silahlı Qüvvələrini təmsil edən Müdafiə Nazirliyinin büdcəsi hesabına saxlanılan hərbi qulluqçuları, hərbi attaşenin (nümayəndənin) köməkçisi, hərbi attaşenin (nümayəndənin) referenti, ticarət nümayəndəsi aparatında baş məsləhətçi, məsləhətçi, mütəxəssis, mədəniyyət mərkəzində baş məsləhətçi, məsləhətçi, mütəxəssis | 10 |

**"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 13.15-ci maddəsində nəzərdə tutulan Azərbaycan Respublikasının dövlət orqanlarının aidiyyəti sahələr üzrə diplomatik nümayəndəliklərə və konsulluqlara, beynəlxalq təşkilatlara, diplomatik nümayəndəliklərin tabeliyində yaradılan təşkilatlara təyin etdikləri, diplomatik nümayəndəliklərin və konsulluqların mövcud olmadığı dövlətlərdə isə ayrıca fəaliyyət göstərən xarici dövlətlərdəki nümayəndələrinə və onların (aparatlarının) işçilərinə təminat və kompensasiyaların verilməsi Qaydaları"na**

**4 nömrəli əlavə**

## Nümayəndələrə və onların (aparatlarının) işçilərinə təhkim olunan xidməti minik və digər avtonəqliyyat vasitələrinin say həddi (limiti)

1. Ticarət nümayəndəsi, hərbi attaşe (nümayəndə), təhsil məsələləri üzrə müşavir, Daxili İşlər Nazirliyinin nümayəndəsi, gömrük attaşesi və mədəniyyət mərkəzinin direktoruna təhkim edilən xidməti minik avtomobilinin say həddi (limiti) 1 (bir) ədəd, onların (aparatlarının) işçilərinə ümumi istifadə üçün 1 (bir) ədəd olmaqla müəyyən edilir.

2. Nümayəndələrə və onların (aparatlarının) işçilərinə təhkim olunan xidməti minik və digər avtonəqliyyat vasitələri üçün tam iş vaxtı üzrə aylıq yürüş həddinin norması 1000 kilometr müəyyən edilir. Xidməti zərurət və ya işin xüsusiyyətləri nəzərə alınmaqla, nümayəndələrin xidməti minik avtomobili üçün aylıq yürüş həddi 40 (qırx) faiz artırılır.